## Milli-mənəvi dəyərlərimiz

# Mənəviyyat zənginlikdir

,,Qəbələ" qəzetinin ötən nömrəsində (29 yanvar) milli-mənəvi dəyərlərimizlə bağlı bir yazı çap olunmuşdu. Vaxtilə ,,Qalibiyyət" qəzetində belə mövzuda yazıları tez-tez verərdik. Qəzetin oxucuları qəzeti əllərinə alan kimi qəzetin manşetinə, rubrikalarına baxar, sonra ilk olaraq, belə yazıları oxuyardılar. O vaxt ,,Qalibiyyət" qəzeti 4-5 min tirajla çap olardı.

Bir vaxtlar var idi hər şey gözəl idi, bir ailədə 5, 6, 7 və daha çox uşaq böyüyərdi. Ailələrdə uşaqlar can deyib, can eşidərdi. Çünki uşaqlar bir-birinə sahib çıxırdı. O zaman eşitməzdin ki, Qəbələdə hansısa evdə bu qədər cinayət hadisələri baş versin. Təsadüfən belə bir hal olsaydı bu ictimaiyyət tərəfindən qınanılardı, utanardı o ailə. Çünki ailələrdə Ana öz yerində idi. Uşaqlara ana həyatı başa salırdı. Kişinin evdə hörmətini qadın saxlayırdı. Bu, ailədəki uşaqlar üçün örnək olurdu. Hanı bu ailələrimiz? Hanı bu analarımız? İndi bəzən evə əri gələndə qadın əlindəki telefonla o qədər məşğul olur ki. Bu laqeydliyi evdə görən uşaqlar da, o tərbiyəni alır, sonra cəmiyyətə o fikir, o düşüncə ilə qarışır.

Şükürlər olsun Allahın böyüklüyünə. Ona görə ki, Allah bizim xalqımız üçün çox böyük nemətlər verib. Yurdumuzun hər qarışı zənginliklə doludur. Bizim bu ailə mədəniyyətimizi, bu zəngin vətənimizi gözü götürməyənlər ,,Avropa mədəniyyəti" deyilən bir yararsız ailə mədəniyyəti ilə ailələrimizə, uşaqlarımızın, gənclərimizin düçüncə tərzinə mənfi təsir göstərməyə çalışırlar. Nəticədə ,,azadlıq" qazanan qadınlarımızın bir çoxu ilk növbədə "baxa bilmirəm" deyib ailələrdən uşaqların sayını azaltdılar. Çünkü bəziləri özü sərbəstlik istəyir, uşağa baxmağa vaxt sərf etmək istəmirlər.

Mən 40 il işimlə bağlı ailələrlə təmasda olmuşam. Hansı evdə ki, ana sözü eşidilib, o evdə hər hansı problemi aradan qaldırmaq çox asan olub, hansı evdə ki, ana yerində olmayıb, haqlı və ya haqsız uşaqların sözü ilə önə çəkilib, həyat yoldaşını eşitməyib, o evdə həmişə ailə arasında qarşısı alına bilməyən problemlər olub və olacaq.

Bu gün Azərbaycan televiziyalarındakı verlişlərə baxanda adam utanır. Mənəvi dəyərlər adı altında elə əcayib verlişlər meydana gətirirlər ki, baxırsan adam xəcalət çəkir. Deyərdim ki, əksər verlişlərdə milli-mənəvi dəyərlərdən danışan ekspertlərin əksəriyyətinin milli-mənəvi dəyərlərdən xəbəri yoxdur. Əlinə bir balaca qazanc düşən qadın əri ilə razılaşmır, bir və ya iki uşağını götürüb evdən gedir və yaxud da ailəsindən ayrılır. Daha sonra televiziyaya gəlib mənəvi dəyərlərdən danışır. Ona görə də baxımsız, yetim, əlacsız, tinlərdə durub dilənən uşaqların sayı artır.

*Qədrini bilmədin yanında ikən,*
*Yalandan ağlayıb, yorma özünü,*
*Dünyadan əl üzüb, indi gedərkən,*
*Yas tutub, baş tutub yorma özünü.*
*Nə olar yada sal çığır-bağırı,*
*İncidib yordun sən, bil ki, yağırı,*
*Yığdı ürəyinə; üzdün fağırı,*
*İndi qəhərlənib yorma özünü,*
*Gedən qayıtmayıb, deyim düzünü.*

Ailə qurarkən valideynlər nikahsız qız köçürürlər, illərlə nikahsız yaşayırlar, dünyaya uşaq gətirirlər. Valideynlər düşünmürlər ki, bu bizim adətlərimizə, qanunlarımıza ziddir.

Bu biz deyilik, özümüzə qayıdaq. Evlərdə uşaqların xoşbəxt gülüşlərinin sayı çoxalsın. Qocalanda vaxtilə atdığınız, tinlərə qoyub qaçdığınız övladlarınızı axtarmaqdansa, vaxtında dünyaya gətirdiyiniz balalarınızın qeydinə qalın ki, axtarıb tapmağa çətinlik çəkməyəsiniz, yanınızda olsun, ana şəfqətilə böyüsün, ata güvəncilə qürurlansın. Dostlarının analarına, atalarına baxıb gözləri yaşarmasın. Deməsinlər ki, kaş mənim də anam, atam olaydı.

Xoşbəxt ailələrin olması üçün, ailələrdə əsil analar, atalar olmalıdır. Uşaqlar tərbiyəni valideynindən-babadan, nənədən, atadan, anadan alır. Həmişə uşaqlar baxır ki, mənim valideynlərim bir-biri ilə necə davranır və gələcəkdə öz ailələrini elə formalaşdırır. Narahat ailələrdən çıxan uşaqlar tək öz ailələrinin yox, ətrafında olan, onlara güvənən uşaqları da öz təsirlərinə salır, o uşaqların da gələcəyini məhv edirlər.

Gəlin öz milli- mənəvi dəyərlərimizi yaşadaq, Aillərimizin xoşbəxtliyini qoruyaq. Hər evdən gülüş səsi eşidilsin, hər evdən toy sədası, körpə səsi gəlsin, Uşaqlar qorxudan evdən qaçmasınlar.

Analar, ailələrdə övladlarınınzın xoşbəxtliyini, gələcəklərinin gözəl, parlaq olmasını, cəmiyyətə və özünüzə yararlı övlad yetişdirmək istəyirsinizsə evdə öz yerinizdə olun. Ailənin qadını olun, ANA olun, dünyaya gətirdiyiniz günahsız körpələrə sahib çıxın, onları bu amansız taleyin hökmünə buraxmayın. Ailədən ayrılıb, gözqamaşdırıcı həyat arxasınca yox, xoşbəxt sonluğa doğru gedin.

Mənim bu müraciətim hamıya aid deyil, ,,xoşbəxtlik", sərbəstlik xülyasına düşüb balalarını, ailəsini, valideyinlərini yaddan çıxaranlaradır.

Gəlin milli mənəvi dəyərlərimizi, adət və ənənələrimizin yaxşılarını (hansı ki, bizə keçmişimizdən qoruyub, saxlayıb miras qoyublar) qoruyub saxlayaq, Genofondumuzun sağlam və təmiz olmasına öz töhfəmizi verək. Hansı Azərbaycan ailəsinə dəyən zərbə varsa özümüzünkü bilək. Hər sahədə olduğu kimi milli-mənəvi dəyərlərin qorunması sahəsində də birlikdə olaq.

**Rəna AZAKLI,**
**"Qəbələ Yazarlarına Dəstək" İctimai Birliyinin sədri.**

# Sağlam fərdlər yetişdirməli

Milli-mənəvi dəyərlər dedikdə ilk təsəvvürümüzdə canlanan adət-ənənələr, ədəb qaydaları, estetik zövq, inanclar, mədəni irs,dil, bir sözlə milli varlığımızı sübut edən tərəflər canlanır.

İnsan - bəşəri sivilzasiyalarda min illərin süzgəcindən keçərək, formalaşan canlıdır. Onu başqa canlılardan fərqli edən dil, üslub, inanc, düşünmə, ağıllı şəkildə qarşı tərəflə ünsiyyət, estetik zövq və digər fərqliliklərdir.İstər eramızdan əvvəl Paleolit dövrü, istər b.e.nın ilk başlanğıc Neolit dövrü, istər İntibah və yaxud müasir dövrün insanlarının özünəməxsus inancları, həyat tərzləri hər zaman ən ali yaradılışın insan olduğunun sübutu olub.

Müasir sivilizasiyanın ilkin mərhələsində elmin, texnikanın, kosmik kəşflərin adı insanla, onun dərin zəkası ilə bağlıdır.

Cəmiyyət fərdlərin inkişafında mühüm rol oynadığı kimi, fərdlər də sağlam cəmiyyətin formalaşmasında əsas şərtlərdəndir. Hər hansı tərbiyə, estetik zövq, emosional davranış ilk olaraq fərdlərdə, onların ətrafla ünsiyyətində özünü göstərir. Bu da ən başlıcası ailə dəyərlərinin fərd üzərində təsiri ilə bağlıdır. Ailədən sonra ikinci mərhələdə təhsil önəmli faktordur. Tez- tez rastlaşdığımız anormal halların (kiçik və yeniyetməlik yaşlarında pis vərdişlərə maraqlı olması, yetkinlik yaşa çatmamış nigah, bullinq, ətrafa qarşı qeyri-etik davranış, intihar, ağır cinayət) baş verməməsi üçün maarifləndirmənin rolu böyükdür. Ailədə valideynlər, uşaq bağçasında, məktəbdə müəllimlər, iş yerində rəhbərlik yeni nəslin sağlam formalaşmasında hər zaman dəstək olmalıdır.

Maarifləndirmə sahəsində mədəniyyət ocaqları, kitabxanalar da əhəmiyyətli işlər görməli, gənclərin asudə vaxtının səmərəli təşkilində öz köməyini əsirgəməməlidir.

Ötən əsrin son dövründə ali təhsil ocaqlarında müxtəlif teatr, rəqs dərnəkləri fəaliyyət göstərirdi. Yadımdadır uşaq olanda Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) tələbələrinin ifasında televiziya ekranlarında gözəl rəqslər nümayiş etdirilirdi.

"Gənclik və Zaman" dedikdə müasir dövrün daha yüksək texnologiya əsrinin tələblərinə cavab verən nəsil və onun zamanla vəhdətini anlayırıq. Ancaq bir nüansı unutmayaq ki, istər miflərin formalaşdırdığı insan tipi, istərsə də müasir loqosun yaratdığı robot insan - bütün bunlar bəşəriyyətin yaşaması üçün zəruri varlıqlardır. İnsanlığı qoruyaq ki, bəşəriyyəti məhv olmaq təhlükəsindən azad edək!

**Natəvan YUSİFOVA,**
**Xırxatala kənd kitabxanasının müdiri.**

# Ailəmiz

Mənim düşüncəmə görə mənəvi dəyərlər dedikdə öncə ailə göz önünə gəlir.

Çünki ailə hər şeydir. Ailə olmaq, kiçik bir dövlətə sahib olmaq deməkdir.

Hər bir ailənin rəhbərliyi, özünəməxsus siyasəti, mədəniyyəti, incəsənəti olur.

Gözəl ailələrin nümayəndələri istər cəmiyyətdə ,istərsə də şəxsi həyatında həmişə yüksək məqam sahibi olurlar-.Ailə olmağın ən vacib qanunlarından biri övlada verilən tərbiyədir.

Tərbiyə insanı istər maddi, istər mənəvi, istərsə də fiziki cəhətdən formalaşdırır.

Dünyagörüşü isə insanın dünyada mövqe tutan hər canlıya hörmət etməsi,anlaması,sevgi ilə yanaşmasıdır.

Düzgün formalaşmış dünyagörüşü olan bir fərd dünyaya zərər gətirə bilməz.

Ailələrdə baş verən mənfi hadisələr birbaşa övladın şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Ailə milli-mənəvi dəyərlərin önündə gələn ən vacib amildir. Övaldın geyim mədəniyyətindən tutmuş, özünüidarəyə qədər hər şey ailə tərbiyəsindən irəli gəlir.

Əxlaq normaları, etika qaydaları, ünsiyyət bacarığı, valideynə hörmət, cəmiyyətdə özünü aparmaq kimi bütün bu zəruri amillər məhz ailədə formalaşır.

Ata-ananın övladına məktəbdə müəllim və şagirdlərlə davranışı, ictimayi yerdə, kütlə ilə davranışı aşılaması da bura daxildir.

Son zamanlar yeniyetmələrin gündəm olan qeyri-etik hərəkətləri dediklərimə sübutdur. Lap dərinə getsək, mütləq həmin yeniyetmə gənclərin ailəsində problemlərin olduğunu görəcəyik.

Evdə ata-ananın bir-birinə qarşılıqlı hörmətini görərək böyüyən bir övlad əsla natamam yetişməyəcək.

Mən də anayam, valideynəm. Bütün valideynlərə səslənirəm:

-Ailənizi sevin!

-Övladınıza sevgi ilə tərbiyə verin ki,övlad da sizin başınızı uca eləsin !

**Aynur DƏRYA,**
**Bum kəndi.**

# Bələdiyyə əmlakı, istifadə, bələdiyyələrin vəzifələri

Bələdiyyə mülkiyyəti - bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlakdır. Bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi və seçki bələdiyyə orqanları olur və o, Azərbaycan Respublikası Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir.

Bələdiyyə mülkiyyəti dedikdə, ilk növbədə, bələdiyyə təşkilatının sahibolma, istifadəetmə və sərəncamvermə kimi hüquqları üzərində reallaşdıra bildiyi hər hansı əmlak nəzərdə tutulur.

Sahibolma - bələdiyyə mülkiyyətinin ilkin forması olub hüquqi və rəsmi şəkildə onun subyektə təhkim olunmasını əks etdirir.

İstifadəetmə - bələdiyyə orqanının öz arzu və istəyinə uyğun olaraq mülkiyyət obyektlərinin təyinatı üzrə tətbiqi ilə bağlı olan mülkiyyət münasibətləridir.

Sərəncamvermə - bələdiyyə mülkiyyəti münasibətlərinin reallaşdırılmasının çoxəhatəli vasitəsi olub, mülkiyyət subyekti qismində çıxış edən bələdiyyələrə sahib olduqları obyektlərə münasibətdə öz baxışlarına əsasən çıxış etməyə və onun istifadəsi, digər subyektlərə verilməsi, başqa bir obyektə çevrilməsi və hətta ləğv edilməsi ilə ələqədar qərar verə bilmək hüququ verir. Hər bir bələdiyyə orqanının mülkiyyyətində olan əmlak iki hissəyə bölünür. Birinci hissə bələdiyyə müəssisə və təşkilatlarına təhkim olunan və bu əsasda təsərrüfat idarəetməsi və operativ idarəetmə hüququnu verən əmlak, digər hissə isə bələdiyyə təşkilatının və onun tabeliyində olan müəssisə və təşkilatların yerli büdcə vəsaitləri olub, bütövlükdə bələdiyyə büdcəsini təşkil edən mülkiyyət hissəsidir. Bütün bu deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, bələdiyyə mülkiyyəti bələdiyyə iqtisadiyyatının reallaşdırılması və inkişafının əsas vasitəsidir. Vacib iqtisadi resurslar formasında çıxış edən bələdiyyə mülkiyyəti olmadan bələdiyyə iqtisadiyyatını təsəvvür etmək qeyri-mümkündür.

Bu gün bələdiyyə mülkiyyətinin iqtisadiyyatda olan müasir vəziyyəti aşağıdakı şəkildə səciyyələnir:

- iqtisadi sistemdə bələdiyyə mülkiyyəti münasibətləri əsasında yerinə yetirilən funksiyalardan asılı olaraq, bələdiyyə mülkiyyəti obyektlərinin formalaşma prosesinin təyini;

- bələdiyyə mülkiyyətinin həm bələdiyyənin öz əhəmiyyətliliyi, həm də orada yaşayan əhalinin həyat fəaliyyəti baxımından yekcins olmaması;

- bələdiyyə mülkiyyəti obyektlərinə sahibolmada müəyyən diskretlik və qeyri-dəqiqlik.

Buna görə də bələdiyyə təşkilatında mülkiyyətin sahibi və istifadəçisi arasında funksiyaların bölünməsi baş verir.

Bələdiyyələr onların mülkiyyətinə verilən dövlət əmlakı üzərində mülkiyyət hüququnu aşağıdakı qaydada əldə edirlər:

1.Bələdiyyə mülkiyyətinə verilən əmlakın siyahısı (o cümlədən inzibati binalar, otaqlar və avadanlıqlar) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edildikdən sonra bələdiyyə qurumları Azərbaycan

(Ardı 8-ci səhifədə).